Heydər Əliyev – 100

# Ümummilli liderin xatirəsinə həsr olunmuş tədbirlər



**İqtisadiyyat Nazirliyinin əməkdaşları arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş “Nə? Harada? Nə zaman?” intellektual oyunu keçirilib.**

İntellektual oyunda nazirliyin strukturlarının və tabeliyindəki qurumların əməkdaşlarından ibarət 31 komanda iştirak edib. Üç mərhələdən ibarət yarışda iştirakçılar müxtəlif mövzularda suallara cavab tapmağa çalışıblar.

***



**Səhiyyə, Ekologiya və Təbii Sərvətlər nazirlikləri tərəfindən ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə Müşfiqabad qəsəbəsi ərazisində ağacəkmə aksiyası təşkil olunub.**

Aksiya zamanı qəsəbədə Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun Eldar şamı və zeytun ağacları əkilib və onlara aqrotexniki qulluq göstərilib.

***



**Tovuz Rayon İcra Hakimiyyətinin və Gənclərin İnkişaf və Karyera Mərkəzinin Tovuz nümayəndəliyinin birgə təşkilatçılığı ilə “Heydər Əliyev İli” çərçivəsində “Heydər Əliyev müasir Azərbaycan dövlətinin banisidir” mövzusunda intellektual turnir keçirilib.**

Əsasən Azərbaycanın tarixi, mədəniyyəti, ümumi dünyagörüşü və ulu öndər Heydər Əliyevin həyatı və fəaliyyəti ilə bağlı suallara cavab axtarılan intellektual turnirdə 20-ə yaxın idarə, müəssisə və təşkilatların komandaları iştirak edib.

*“Xalq qəzeti”*